**Anar FAZİLZADƏ**

# *UŞAQLIQDAN BOYLANAN XƏYALLARIM*

BAKI - 2018

Redaktor: Fazil Sənan -
*Yazıçı-publisist*

Korrektor: Sona İsayeva

**Anar Fazilzadə. Uşaqlıqdan boylanan xəyallarım. Bakı, "Təknur" nəşriyyatı – 2018. 128 səh.**

*Anar Fazilzadənin "Uşaqlıqdan boylanan xəyallarım" kitabı sirli-sehirli uşaq dünyasının həyata, cəmiyyətə maraqlı baxış və düşüncələrindən bəhs edir. Müəllif 13 yaşında olarkən qələmə aldığı şeirlər, hekayələr və çəkdiyi rəsmlər bu gün ona vaxtilə yaşadığı uşaqlıq dünyasının xəyallarını xatırladır.*

*Hesab edirik ki, Anarın kitabdakı arzu və xəyalları uşaqlar üçün də maraqlı və oxunaqlı olacaq.*

**ISBN:** 978-9952-445-00-4

**© A.Fazilzadə, 2018**

# HEYİF Kİ...
## *(Ön söz)*



Bir gün yazıçı dostum Fazil Sənan mənə bir kitab əlyazması verdi. Oxuyub fikrimi demək üçün. Oğlunun əlyazmaları olduğunu dedi. Həm də VI sinifdə oxuyarkən yazdığı. Düzdü əlyazmanı götürdümsə də, heç ürəyimcə deyildi. Təvazökarlıqdan uzaq olsa da, bu aralar o qədər məntiqsiz, mənasız yazılar görüb oxumuşam ki, daha nə görmək, nə də oxumaq istəyirdim.

Nə isə, gələk əsas məsələyə. "Uşaqlıqdan boylanan xəyallarım" kitabının əlyazmasını oxumağa başladım. Nə gizlədim, heyrət məni bürüdü. Özüm öz sualı-

ma dəqiq cavab verə bilmədim. Görəsən həqiqətənmi bu yazılar bir VI sinif uşağınındı?!. Necə deyərlər, yazını bir nəfəsə oxudum. Müəllif Anar Fazilzadədir. Körpə ürəyinə dünyalar sığışan Anar Fazilzadə.

Vətənə, Xalqa olan bağlılığını “Xəlil Rza ömrü” adlı şeirlə elə göstərib ki, heyran qalmamaq olmur. Fəsillərə aid şeirləri var. Şeirləri müzakirə etməyəcəm. Sadəcə 6 misradan ibarət “Arının ağrısı” adlı bir şeiri qısa olduğu üçün diqqətinizə çatdırım...

*Dişlədi, uçdu arı,*
*Bapbalaca Gülnarın*
*Balaca barmağını.*
*Qızcığaz yalvardı ki,*
*Barmağından çıxartsın,*
*Tez nənəsi ağrını.*

Uşaq düşüncəsinə bax..., "Arı dişlədi" və ya "Nənəsi barmaqdan ağrını çıxarsın" ...

Hələ bir "Öküz ağa"sı var ki, Allah amansan, uşaq nələr müşahidə edib, nələr.

Müşahidələri əsasında yazdığı bir-birindən maraqlı hekayələr müəllifi balaca Anar Fazilzadəni nə yaxşı ki, oxumuşam – dedizdirdi mənə. Mən də bu yazını oxuyan varsa, ona üz tuturam: "Anar Fazilzadənin körpə, düşüncələrini oxumağa dəyər".

Mənə çox maraqlı gəldi, görəsən bu istedadın sahibi balaca Anar, niyə, nəyə görə davam etdirməyib yazılarını?!. Öz sualıma özüm cavab verirəm: – Yəqin ki, o vaxtdan balaca Anar bu günkü istedadların necə yaşadığını görür və duyurmuş.

Sonda isə Anar Fazilzadəyə üzümü tuturam: – 1990-cı illərin balaca Anarı, sizin haqqınızda nə yazsam az olacaq, o körpə ürəyinizə sığdırdığınız böyük dünyanız mübarək olsun. Sənəti davam etdir-

məmisiz ki, sizə ürəkdən sənət uğurlarınızın davamını arzulayam. İndi mən sizə özünüz özünüzə etdiyiniz arzuların çin olmasını arzulayıram.

Sənəti davam etdirmədiyiniz üçünsə 7 hərfli bir sözü daima öz-özümə təkrar edəcəm, **HEYİF Kİ...**

*16.06.2018*

**Rəsul MUROVDAĞLI,**
***Şair-publisist.***

# ŞEİRLƏR



## ZAMAN DƏYİŞİB

Görəsən azaddırmı
fikirdən,
dərddən,
qəmdən,
Səmada buludlar arasında
süzən qartal.
Dənizdə, çayda, okeanda
üzən balıqlar da.
Elə bil düşünüb dünyanın
bu qəliz işlərini
heyvanlar da.
Qartal ac qalır,
dostluq edir,
kəkliklə,
siçanla,
«Hava» ilə tənəffüs edir
balıqlar da.

Tullayıbdır, istəmir
çanaqlı bağa da,
öz çanağını.
Deyir: «Azadlıqdır, Aşkarlıqdır,
nə qədər gəzim
mən gizlincə».
Canavar da getməyir,
ceyranın izincə.
Qoy özü gəlsin mənim yanıma,
mən niyə gedirəm
onun dalınca.
Bir əməldir indi doğulan,
indi yaranan.
Beş yaşlı uşağa da allanır
dünyagörmüş bir qocaman.

*10.12.1990*

# XƏLİL RZA ÖMRÜ

Xəlil Rza ömrü uzundur, uzun.
Çaylar kimi,
                    göylər kimi,
                                        yollar kimi.
Möhkəmdir polad kimi, çuqun kimi,
Babək kimi Xəlil Rza ömrü!
Öz nərəsi ilə Koroğlu kimi
Səs saldı o, bütün kainata.
Xalqını qoymadı yata,
Nəsimi kimi, Xəlil Rza ömrü!
Dağıtdı qəzəbinin tufanı,
Dəmir qaranlıq nəm zindanı.
Qoymayacaqdır yerdə qala,
Xalqımın Babək andı, -
Nəhəng, nəhəng Xəlil Rza ömrü!
Nəsimitək soysalar da
                              qüdrətinin dərisini,

Xıncım-xıncım əzsələr də
inadını, nəfəsini,
itirmədi ruhunu.
Quru kəlmə də vermədi yada.
Halal olsun, Xəlil Rza ömrü!
«Azərbaycan» deyəndə
Dili ağzında qurusa da,
Qeyrəti uğrunda zəhər içdi,
Ağzı gəldi baltək dada.
Bəslədiyi dünyasına
əbədiyyət qatarında
bələdçitək yola düşdü.
Halal olsun!
Halal olsun!
Xəlil Rza ömrü!!!
*02.11.1990*

# ATLI XƏLİL RZA

İgid, nər
Koroğlu kimi Xəlil Rza,
Minib bərkdən çapırsan
hökmün dəli atını.
Yəhərsiz, yüyənsiz, cilovsuz
heç qorxmadınmı,
İmperiya qəfil yıxa
səni atdan?
Budur Xəlil gedir
cığırla Qıratda,
Od-alovun içindən çapa-çapa.
Can əridir, haqqın
duruluğun yolunda.
Keçir hündür dağları,
sıx meşələri,
Xəlil Rza Qıratda.
Gedir Məlik Cümşüdün
igidlik donunda.

Eşit, ey Xəlil!
Əgər çıxsa yoluna bir qarı,
əl vermə ona.
O imperiyadı girib dona,
səni yıxmaq üçün
çıxıb yoluna.
Xəlil gedir dünyanın axırına,
düşüb xalqın axarına.
Qızıl alma dərmək istəyir
qızıl ağacdan,
Qılıncla, qalxanla,
qələmlə, vərəqlə.
Su gətirmək istəyir ələklə
«azadlıq», «suverenlik» arxından.
Qızıl alma yemək istəyir
qəhrəman Xəlil Rza!
Qoy cavanlaşsın, poladlaşsın,
şair ömrü.
Yazsın yenə də
Torpağın taleyini, xalqın dərdini!

Gedirik biz, oğurlamağa yox,
Döyüşlə
od gətirək
od allahı Zevsdən.
Cəsur,
igid
Prometey kimi!
O, bilir heç vaxt düşməz
Zevsin qanlı toruna.
Yoxsa didər onu da
Qaf dağında
caynaqlı imperiya qartalları!
*06.11.1990*

## QIŞ

Görünmür çöllərdə bir kəs,
Artıq qışdır, qış fəslidir.
Əsən küləkləri isə,
Qışın soyuq nəfəsidir.

Bir bax uşaqlara, gör sən,
Sevincləri aşıb-daşır.
Kimi sürüşür, kimi də,
Qar üstə mayallaq aşır.

Gəzir hər yanı yem üçün,
Sərçə, göyərçin, boz qarğa.
Yoldaş olub yığışırlar,
Yem üçün hamısı bir bağa.

*19.02.1990*

## ARZU

İstərdim ki, tez gəlsin yaz,
Ərisin dağların qarı.
Ətraf çiçəklənsin bir az,
Gözəlləşsin bahar çağı.
Yansın stol üstə şamlar,
Qoy gəlsin Novruz axşamı.

Hamı desin bir ağızdan:
«Xoş gəlmisən el qonağı».
Torba sallayaq evlərə,
Gözəl martın axşam çağı,
Bu sözlər düşsün dillərə:
«Xoş gəlmisən el qonağı».
*11.03.1990*

## ARININ AĞRISI

Dişlədi, uçdu arı,
Bapbalaca Gülnarın,
Balaca barmağını.
Qızcığaz yalvardı ki,
Barmağından çıxartsın,
Tez nənəsi ağrını.
*10.09.1991*

# İT XİYARI

Hisindən it xiyarı,
Əl dəyən kimi ona,
Qəzəbindən partlayıb,
Dağılır tez hər yana.

*01.09.1991*

# AYDININ BABASI

Bir söylə görək, ay Ana,
Bax, bu şəkil kiminkidir?
Bir gəl sən də bax, ay Sona,
Bax, bu şəkil kiminkidir?
İşə bax bir, bu şəkili
Tanıdır ona anası.
Dəcəl Aydın da bilmir ki,
Divardakı o şəkildə
Öz babasıdır, babası.

*17.10.1989*

## GÜNÜN ŞÜASI

Elə ki, səhər açıldı,
Hər yan, ətraf işıqlandı.
Günəş öz saçını sancdı,
Haçaqulağın gözünə.
Ovcunu qoyub üzünə,
O, sevindi öz-özünə.
Çıxıb çölə, etdi idman,
İstəyir olsun pəhləvan.
Pələng də qalxdı yuxudan,
Güclüdür pələng çoxundan.
Heç vaxt qalmır o ovundan,
Vəhşi atlar çıxır düzə,
Ov gəzirdi ana gürzə.
Düşdü sonra gün üzünə,
Balaca tənbəl Mirzənin
O da qalxmayıb yuxudan,
Çöndü o biri üzünə.

*05.10.1989*

## ÖKÜZ AĞA

Camaat öküzə axmaq deyərdi,
Hamı onu heyvan deyə söyərdi,
Girərdi çəpərə,
bostana-bağa baxmazdı,
Yeyərdi, hələ dərisinə də sığmazdı.
Keçdi vəzifəyə elə k, öküz,
Hər gün hörmət gördü,
hamıdan sözsüz.
Yoldaş Öküz, deyə şənləndirdilər,
Dedilər ki, keçir öküzün yaşı;
Yığışıb öküzü evləndirdilər.
Xanım Dana oldu həyat yoldaşı.

*04.12.1988*

## GÜNAYIN ŞƏKLİ

Kəndimizə qış gəlib,
Külək də hay-harayda...

Fırçası var Günayın,
Şəkil çəkir Günay da.
Baxın onun şəklinə,
Uşaqlar çimir çayda,
Tuturlar onlar balıq,
Suda üzür bir qayıq.
Yaxşı çəkə bilmirdi,
Üşüyür axı özü.
Qıpqırmızı qızarıb,
İncə, yumru üz-gözü.

*09.09,1988*

## QIŞ GECƏSİ

Ulduzlar yoxdu göydə,
Hökümdar olub şaxta.
Naxış salıb söyüdə,
Xoruzlar banlayanda,
Gəcənin sükunəti,
Pozulur tez bir anda.

Çölə çıxırsan hər yan,
Dümağ rəngə boyanıb.
Heç bu qış ağaclarda,
Bir yarpaq da qoymayıb.

*11.12.1991*

## YAZ

Qış tərk etdi torpağı,
Gül-çiçəklər boy atdı.
Dağları, dərələri
Yaz yuxudan oyatdı.

*24.03.1991*

## ƏKİZ BACILAR

Şəlaləylə İradə,
Birgə olub anadan.
İkisi də elə bil,
Bölünüb bir almadan.

Gəzəndə ikisi də,
Onları səhv salırlar.
Seçəmmirlər qızları,
Durub çaş-baş qalırlar.
*27.09.1991*

## ƏSGƏR GEDƏNDƏ

Nə bir kərə dindim, nə də danışdım,
Anamla görüşüb ayrılanda mən.
Qəhər boğdu məni, doldu gözlərim,
Anamla görüşüb ayrılanda mən.

Ana çox əzizdi, qəlbim kövrəldi,
Geriyə baxmaq da mənə zor gəldi.
Kənd-kəsək, el-oba, yaman yad gəldi,
Anamla görüşüb ayrılanda mən.

Təbim dilə gəldi, gözüm ağladı,
Həsrət ürəyimi didib dağladı.

Vərəqlər xatirə şeir saxladı,
Anamla görüşüb ayrılanda mən.

*05.06.1999*

## DAĞLARIN

Ruhumu oxşayır dağlar,
Sinəsi al-əlvan olar.
Göy yamaclar, buz bulaqlar,
Vurğunuyam bu dağların.

Sıra-sıra köç edirik,
Durna kimi yol gedirik.
Qiblə kimi and içirik,
Vurğunuyam bu dağların.

Darayır saçını külək,
Atamın ağ saçlarıtək.

Görəndə döyünür ürək,
Vurğunuyam bu dağların.

*07.06.1999*

## ANA İSTƏYİ

Kaş anam yanımda olaydı mənim,
Başımı qoyaydım dizləri üstə.
Dünyanı gəzəydi fikrim, xəyalım,
Gözlərim yollarda, qulağım səsdə.

Bir qadın görmüşəm anama oxşar,
Saçları ağ şəffaf, alnında qırış.
Dünyada ən gözəl nemətdi Ana,
Onun qiymətini gəl məndən soruş.

Sanki anam durub gözüm önündə,
Yenə acı-acı danlayır məni.
İntizar çökübdür qara gözünə,
Qapının ağzında gözləyir məni.

Dünyada ananın yoxdu qiyməti,
Dostlar, anaların bilin qədrini.
Hər an əzizləyin gözləriniztək,
Qocalıq əyməsin onun qəddini.

*08.06.1999*

## DOSTUMA MƏKTUB

Əziz dost, bu həyat ki, var,
Mənası dərindir, dərin.
Bu həyat bir uzun yoldur,
Bura bir dünya məhvəri.

İnsan var ki, ömrü azdır,
Ömrü bir şam kimi yanır.
Həyat özü natarazdır,
İnsan var ki, Haqqı danır.

İnsan ömrü min bir əzab
Ucalır öz zəhmətiylə.

Ağaclar qol-budaq atır,
İnsan isə şöhrətiylə.

Yaşa atan, anan üçün,
Bu ucaldar, dostum, səni.
Sevən dost-qardaşın kimi.
Əziz dost, unutma məni.

*21.06.1999*

# HEKAYƏLƏR

# YUXU

Gecədən xeyli keçmişdi. Çöldə yaman soyuq idi. Havadan qar iyi gəlirdi. Azad pəncərəyə yaxın çarpayıda yorğana bürünərək mışıl-mışıl yatmışdı.

...Azad birdən döşəməyə yıxıldı. Və bir əli ilə çarpayıdan tutdu. O biri əlini döşəməyə dayayıb, dizləri üstdə dayandı. Gözlərini ovuşdurub ətrafa göz gəzdirdi. Sonra yenidən yerinə uzandı. Xeyli fikrə getdi. Birdən qapıda şaqqıltı səsi eşidib ayağa qalxdı. O, pəncərədən çölə baxdı. Pilləkənin altında yad bir it uzanmışdı. İt bir azdan çıxıb getdi. Azad bu işə məəttəl qaldı.

Səhər tezdən Azad pilləkənin altına diqqətlə baxanda gördü ki, balaca bir küçük büzüşüb yumağa dönüb. Ona əv-

vəlcə elə gəldi ki, küçük ölüb. Küçüyü əlinə götürəndə hiss etdi ki, nəfəsi var. Axşam yad itin pilləkənin altında nə üçün gəzdiyini indi başa düşdü.

O, küçüyü evə gətirib yanına qoydu və isti süd içirtdi. Sonra küçüyə həyətdəki tut ağacının altında yaxşıca bir yer düzəltdi. Azadın dostları hadisədən xəbər tutan kimi həyətə doluşdular. Heç kim buradan uzaqlaşmaq istəmirdi. Çox fikirləşdikdən sonra küçüyün adını Toplan qoydular.

Aylar, illər ötdü. Toplan böyüyüb vəfalı bir it oldu…

Azad qəfil yuxudan oyandı. Ətrafda heç kim yox idi. Bayırda quşbaşı qar yağırdı.

*14.03.1989*

# GÜLNAR VƏ ARILAR

Baharın isti günlərindən biri idi. Səhər yenicə açılmışdı. Gülnarın üzünə düşən günəşin al şəfəqləri onu yuxudan oyatdı. Gülnar ərincəklik edərək yatağından qalxmayıb fikrə getdi. Gülnar dünən böyük qardaşının «Heyvanlara və bitkilərə uşaqların qayğısı» adlı kitabı oxuduğunu xatırladı.

Sonra Gülnar qalxıb paltarını geyindi. Əl-üzünü yuyub nahar etdi. Günorta isə həyətlərindəki güllüyü alaq otlarından təmizləmək üçün bağa getdi. İsti havada güllərin arasında bir neçə arı gördü. Gül ləçəyinin üstünə yenicə qonmuş arının vızıltısı onu özünə tərəf çəkdi. O, gülə yaxınlaşıb arını ovcuna götürdü. Onun incə əlləri arıya dəydikcə arı acınaşırdı. Gülnar ovuclarını iç-içə

tutaraq arını əzizləmək üçün yanağına yaxınlaşdırdı. Bərk acnaşmış arı, Gülnarın laləyə bənzər yanağını sancdı. Gülnar arını yerə tullayıb ağlaya-ağlaya anasının yanına qaçdı. Və böyük qardaşını görən kimi dedi:

- Bəs deyirdin heyvanlara qayğı lazımdır? Mən də arını tumarlamaq istəyirdim.

Qardaşı onun saçlarını oxşayıb dedi:

- Ay dəli, arıları tumarlamaq yox, onlara qulluq etmək lazımdır. Bəkir babaya deyərəm, arılara qulluq edəndə səni də aparar. Onda görərsən ki, arılara necə qulluq edirlər.

Gülnar bayıra qaçdı. Uşaqlar onu görən kimi gülüşdülər. O, utandığından şişmiş gözlərini gizlətməyə çalışırdı.

*23.05.1989*

## ƏSL ZƏMANƏ UŞAĞIDI
***(İbtidai sinif müəllimim Vaqif Məhərrəmova)***

Bir gün bir evə qonaq gəlir. Qonağın qarşısına çay-çörək qoyurlar. Qonaq çay-çörəyini yeyib-içdikdən sonra, mütəkkəyə dirsəklənib dincəlmək istəyir. Bu vaxt qonağın gözü divanda oturmuş balaca uşağa sataşır. Qonaq uşağı söylətmək məqsədi ilə soruşur:

- A qəşəng bala, atanı çox istəyirsən, yoxsa ananı?

Uşaq seyrək dişlərini göstərərək:

- Anamı.

- Ay sağ ol! Daha kimi çox istəyirsən?

- Atamı.

Qonaq qaşlarını çatıb bir də soruşur:

- Daha kimi çox istəyirsən?

- Babamı.

- Nəyə görə birinci ananı, ikinci atanı çox istəyirsən, a qəşəng bala? – deyə qonaq maraq dolu gözlərini uşağa zilləyir.

Uşaq sanki ehtiyat edərək, yavaşca:

- Pul kisəsi anamdadır. Onun pulu çoxdur. O, mənə çoxlu pul verir. Bunu eşidən qonaq gülümsəyərək:

- Babanın pul kisəsini nənən saxlayır?

Uşaq deyir:

- Yox.

- Niyə? - deyə qonaq soruşur.

Uşaq dillənir:

- Çünki o köhnə zəmanənin adamıdır.

Qonaq gülümsəyərək ürəyində: «Bax, əsl zəmanə uşağıdır».

*18.08.1990*

# YOLKA ŞƏNLİYİ QONAQLARININ SƏRGÜZƏŞTİ

Uzaqdan bir gəmi görünürdü. Bu gəmi yolka şənliyinə gələn qonaqların gəmisi idi. Gəmini Ağ Ayı idarə edirdi. Tülkü gəminin dor ağacından əlini yellədirdi. Dələ isə dor ağacının lap başına çıxmışdı, O, hər yanı görsün deyə ora çıxmışdı. Şaxta baba da dovşanlar ilə gəminin kənarında oturub ayaqlarını dənizə sallayıb yelləyirdilər. Birdən gəmi dayandı. Ağ Ayı bildirdi ki, gəmi xarab olub. Hamı sakit-sakit dayanıb fikrə getmişdi. Qəflətən gəmi yırğalandı. Onlar yatmış kimi diksindilər. Şaxta baba ətrafa göz gəzdirdi, lakin gözünə bir şey görünmədi. Gəminin böyründə Göy balinanı görəndə hamı təəccübləndi. Göy balina gülərək dedi:

- Hə, sizsiniz? Siz mənim dənizimə xoş gəlmisiniz. Hara belə? Ağ Ayı damağında tüstülənən qəlyanı tərpədə-tərpədə qalın, xırıltılı səslə:

- Dənizin o biri sahilində yolka şənliyinə gedirik. Axı bizi gözləyirlər.

- Hə..., lap yaxşı. Bilirsiniz də şənliyə az qalıb. Axı gecikəcəksiniz: - Göy balina cavab verdi.

Şaxta baba dinmədi. Haçaqulağın isə gözləri dolmuşdu.

Bilirəm, gəminiz xarab olub. Onun üçün də bikefləmisiniz. Mən bilirəm nə etmək lazımdır, - deyərək Göy balina quyruğunu suya çırpdı.

Tülkü təəccüblə haçaqulağa baxdı. Bunu görən Göy balina:

- Siz gəmini mənə bağlayın, - dedi.

Yolka şənliyinin qonaqları tez sevincək trosu Göy balinaya bağladılar.

Göy balina sürətlə dartınıb gəmini arxasınca apardı. Üç-dörd saatdan sonra onlar sahilə çatdılar. Göy balina dedi:

- Mənim köməyim bura qədər, di sağ olun, deyib suya batdı və suyun üzündə əmələ gələn halqalar bir anda yox oldu.

Onlar Göy balinaya razılıqlarını bildirərək, hədiyyələrini götürüb yollarına başladılar. Dalda qalmış dovşanlar isə «bizi də gözləyin» deyib içi dolu çantaları götürüb onların dalınca qaçdılar. Onlar tələsə-tələsə iri addımlarla irəliləyirdilər. Qonaqlar irəlilədikcə ayaq izləri dənizin qumlu, yumşaq sahillərinə həkk olunurdu. Ağ Ayının arxasındakı böyük torba isə uşaqlara Yeni il şənliyinin qonaqlarının Yeni il hədiyyəsi idi.

*16.10.1990*

# TÜLKÜ VƏ DOVŞAN

Bir gün bir dovşan yuvasından çıxıb, yem axtarmaq üçün meşənin içərisinə yollandı. Lakin o meşədə otdan başqa heç nə olmadığını görüb, kələm və kök oğurlamaq üçün yaxındakı kəndə yan aldı. Dovşan yavaş-yavaş çəpərə yaxınlaşıb deşik tapmaq üçün çəpərin yanı ilə o tərəf, bu tərəfə getməyə başladı. Birdən çəpərin altı ilə keçən gilfi gördü və gilfdən bostana girdi. Bostanda hər şey əkilmişdi. Kələm də, kök də var idi. Dovşan cəld bir az kələm yarpağı, bir az da kök yığıb həmin gilfin yolu ilə bostandan çıxdı və meşəyə, balalarının yanına götürüldü. Yuvasına çatmağa az qalmışdı ki, balalarının səsini eşidib

təəccüblə dayandı. Dovşanın qorxudan qulaqları şəkləndi. Dovşan yavaş-yavaş irəliləyərək yuvasından aralı olan ağacın arxasında gizləndi. Bir xeyli aradan keçmişdi, dovşan gördü ki, bir şələquyruq yuvanın ağzında bala dovşanlardan birini tutub, o biri əli ilə də yuvanın içərisini yoxlayır.

Dovşan bildi ki, tülkü onun yuvadan getdiyini bilib. Oğru şələquyruq bala dovşanları aldadıb çölə çağırıb birini tutub, o biri balalar isə qocaman palıdın deşiyinin lap dibinə çəkiliblər. Tülkü isə onları tuta bilməyib. Dovşan bilmədi neyləsin. Birdən o qışqıra-qışqıra yuvasına tərəf yüyürdü:

- Qoymayın! Qoymayın! İtlər məni yedi! Qoymayın! Qoymayın! Ovçular məni tutdular!!!

Bunu eşidən tülkü bala dovşanı tullayıb qaçmağa başladı. Dovşan isə yaralı balasını götürüb yuvasına girdi. Yaralı balanı əmizdirib yarasını yalamağa başladı.

*08.11.1990*

## PİNTİ DADAŞ

Dadaş birinci sinifdə oxuyur. Bazar günü olduğu üçün o, bu gün məktəbə getməmişdi. Üst-başı pinti olduğuna görə hamı ona Pinti Dadaş deyir.

Gün çıxmışdı. Payız günəşinin zəif şüaları adamı heç də isitmirdi. Dadaş məktəbli köynəyini geyinib, qapıdakı bağa getdi. Nar ağaclarının ensiz yarpaqları elə bil yerə naxış vurmuşdu. Dadaş nar ağaclarının aşağı budaqlarından

aşağı əyilmiş iki nar gördü. O, acgözlüklə narları qırıb yeməyə başladı. Dadaşın biləklərindən axan qıpqırmızı şirə köynəyini batırdı. O, narların ikisini də yeyib qurtardıqdan sonra iri addımlarla qapıdan çıxdı. Dadaş əllərini təzə su ilə doldurulmuş vedrələrə salıb silkələdi və əlləri yuyulmuş kimi əl-üz dəsmalı ilə silib evə girdi. Bir az otaqda gəzdikdən sonra stolun arxasına keçdi. Birdən gözü otağın küncündə qoyulmuş böyük güzgüyə sataşdı. O, gülümsəyərək güzgüyə yaxınlaşdı. Dadaş gördü ki, güzgü qıpqırmızıdır. Stolun üstündən dəsmalı götürüb güzgünü silməyə başladı. Dadaş nə etdisə güzgüdəki «ləkə»ni silə bilmədi. Bayaqdan Dadaşa tamaşa edən anası qəh-qəhə ilə güldü. Dadaş pərt olmuş kimi soruşdu:

- Nə olub? Nəyə gülürsən?

Ana başını yelləyib dedi:

- Heç, sənə gülürəm.

Dadaş donquldanaraq dilləndi:

- Bəs nə edim? Nə edirəm ləkəni güzgüdən apara bilmirəm.

Ana gülümsəyərək dedi:

- Get əvvəlcə əl-üzünü çöldə təmiz-təmiz yuyub bura gəl.

Dadaş anasının dediyi kimi edib, anasının yanına gəldi. Anası dedi:

- İndi güzgüyə bax.

Dadaş güzgüyə baxdı. Güzgüdə heç bir ləkə yox idi. Dadaş özü də gülərək əl-üz dəsmalı ilə üzünü sildi.

*29.11.1990*

# ASƏFİN KƏLƏYİ

Asəf ikinci sinifdə oxuyur. Dərslərindən həmişə pis qiymətlər alır. Bir gün müəllim onlara əlavə oxudan şeir və nağıl öyrənməyi tapşırdı. Asəf dərsdən evə gələn kimi yeməyini yeyib oynamağa getdi. Axşam evə qayıdanda birdən yadına düşdü ki, əlavə oxudan heç bir şey oxumayıb. O, stolun üstündəki nağıl kitabını götürüb bir-bir vərəqlərini çevirməyə başladı. Bu nağıl yaxşı nağıldı, elə qoy bunu oxuyum - deyə Asəf başladı oxumağa. Hıqqana-hıqqana başdan bir-iki cümlə oxumuşdu ki, dayandı və öz-özünə fikirləşdi: «Çox böyükdür, bəs bunu necə oxuyum, mən?»

Kitab əlində, Asəf divanda oturmuş anasına tərəf getdi.

- Ay ana, nə olar, al bunu oxu də.

- Anası Asəfin xətirinə dəyməyərək, oxuyaram - dedi.

Asəf diqqətlə anasına qulaq asdı.

Bir azdan ana nağılı oxuyub qurtardı və kitabı Asəfə uzatdı. Asəf kitabı anasından alıb bacısına tərəf getdi. Mehriban isə şəkil çəkirdi.

- Hə, yenə nədi? - deyə Mehriban Asəfə tərəf çöndü.

Bacı, sən dördüncü sinifdə oxuyursan. Həm də yaxşı oxuyursan. Bir yaxşı nağıl tapmışam. Anam oxudu, çox xoşuna gəldi. İndi də gətirdim ki, sən oxuyasan. Yaman maraqlı nağıldı. Al bir oxu.

Mehriban tez kitabı qardaşının əlindən alıb nağılı oxumağa başladı. Həqiqətən nağıl çox maraqlı idi. Nağıl həm Mehribanın, həm də Asəfin xoşuna gəldi.

- Di al apar. Mehriban kitabı qardaşına uzatdı.

- Çox sağ ol, bacı, - deyib Asəf kitabı alaraq arxa otağa keçdi. O, kitabı çantasına qoyub gülümsəyərək:

- İndi dərslərimə hazıram. Bu da mənim nağılım.

*18.12.1990*

## KOSANIN BAYRAM SƏFƏRİ

Kosa eşitdi ki, uşaqlar Bakıda Novruz bayramını təntənəli şəkildə keçirtmək üçün böyük hazırlıq işləri görürlər. Kosa bayram şənliyinə vaxtında çatmaq üçün şənliyə bir neçə gün qalmış yola hazırlıq görməyə başladı. Kosa yamaqlı şalvarını geyinib, torbasını da çiyninə keçirib yola düşdü.

Xəzərin qumlu sahilinə çatanda Ko-

sa hiss etdi ki, yaman susayıb. Torbasını böyrünə qoyub, əvvəlcə əl-üzünü yudu, sonra bir ovuc su götürüb ağzına aldı. Dini-imanı yanan Kosa tez suyu yerə tüpürdü. Acıqlı-acıqlı torbasını da götürüb, deyinə-deyinə, öskürə-öskürə yolu əlinə aldı. Kosa şəhərə çathaçatda idi ki, üstündə «İcarə» yazılmış bir «Volqa» markalı maşın onun yanında dayandı. Şələbığ sürücü Kosanı maşına dəvət etdi. Kosa sevinə-sevinə öz ürəyində: «Buralarda nə yaxşı adamlar var» - deyərək torbasını çiynindən aşıraraq, burnunu çəkib maşına əyləşdi. Maşın bir xeyli getmişdir ki, yoldan kənar səssiz-küysüz bir yerdə dayandı. Sürücü tez maşının sükanı arxasından düşüb əlindəki bıçağı Kosanın böyrünə dirəyib, «düş qabağıma», - dedi. Kosa boş torbasını qoltuğuna vuraraq əllərini yanına

salıb maşından düşdü. Sürücü onu qarşıdakı təpənin arxasına gətirib «Ciblərində nəyin var, ver bəri» deyib, o biri əlini Kosaya tərəf uzatdı. Kosa gözlərini döyə-döyə cibindən üç 20 qəpik çıxarıb sürücüyə uzatdı. Sürücü əli ilə vurub qəpikləri yerə səpələdi və başladı Kosanın ciblərini axtarmağa. Birdən sürücünün əlləri Kosanın yamaqlı şalvarının cırıq ciblərindən çıxdı. Bunu görən sürücü deyinə-deyinə bıçaq əlində Kosanı orada qoyub «İcarə» yazılmış «Volqa»-sına tərəf yollandı və maşına minib şəhərə tərəf sürdü. Kosa isə tozlanan yol ilə şəhərə tərəf getməyə başladı.

Kosa şəhərə çatanda gün bərk qızmışdı. Artıq günortanın istisi bir yandan, aclıq da bir yandan Kosanın lap kələyini kəsmişdi. Kosa dabanı deşilmiş başmağının içində gizlətdiyi 50 manatı

çıxarıb, qarşısına «Günəş» kooperativi yazılmış balaca köşkün ağzına gəldi. Əlindəki puldan bir sarı təklik tullayıb iki stəkan su içdi. Kosa bir xeyli gözlədi ki, satıcı pulun xırdasını qaytarsın. Amma gördü ki, satıcı heç ona fikir vermir. Naəlac qalan Kosa dilləndi:

- A qardaş, pulun qalığını qaytarmırsan?

- Nə pul, a kişi?

- Bir manat verdim, iki stəkan su içdim. Bəs qalanı?

- Satıcı qızıl dişlərini ağardaraq:

- Hə, belə de. Bəs sən bilmirsən ki, biz bazar iqtisadiyyatına keçmişik. Suyun stəkanı 50 qəpikdir. İndi bildinmi?

- Kosa öz-özünə «o bazar iqtisadiyyatı deyilən şey buymuş»? - deyib köşkün ağzından aralandı.

Kosada daha taqət qalmamışdı. Suyu da içəndən sonra ürəyi sıyrılıb, lap ayağının altına düşdü. Gözü birdən yolun qırağında kənarına hasar çəkilmiş bir yeməkxanaya sataşdı. Kosa yeməkxananı görən kimi tez küçəni keçmək istədi. Yolun ortasına çatar-çatmaz Kosanın torbası böyürdən keçən maşınlardan birinə ilişdi. Kosa yıxıldı, torba isə cırıldı. O, bir təhər ayağa durub torbasının cırığına baxdı və bir də gəlib-gedən maşınlara. Birdən kimsə əli ilə Kosanın çiyninə bir neçə dəfə vurdu. Kosa arxaya çönəndə bir milisioneri qarşısında dayanmış gördü. Kosa dedi:

- Xeyir ola, nə istəyirsən qardaş?

- Yol hərəkət qaydalarını pozmusan. Sən heç məktəbdə oxumamısan?

- Kosa təəccüblə milisionerin bozarmış sifətinə baxdı və dinmədi.

- Səni milis şöbəsinə aparmalıyam, deyən milisioner daha da bozardı.

- Ay qardaş, mən tələsirəm axı.

- Vətəndaş, sən tələsirsən deyə mən qanunu pozmalıyam?

- Kosa gördü ki, yaman yerdə axşamlayıb. Əlini yamaqlı şalvarının cibinə salıb, 3 qırmızı onluq çıxarıb milisionerin yan cibinə dürtdü. Bu başqa məsələ, deyən milisioner, Kosanın qolundan tutub onu səkiyə çıxardaraq, «yaxşı yol» deyərək yola saldı.

Yeməkxanadan çıxanda artıq hava qaralmışdı. Kosa gecə sığınacaq tapmaq üçün küçələri dolaşırdı ki, bir də gördü «Cənub» mehmanxanasının qarşısındadır. Kosa sevincək içəri girdi. Nə qədər yalvarıb xahiş etsə də, «yerimiz yoxdur» sözündən başqa ayrı söz eşitmədi. Axırda naəlac qalan Kosa kirli əllərini tor-

basına tərəf uzadıb eşiyə çıxdı. Bir xeyli veyilləndikdən sonra gördü ayrı əlacı yoxdur. Özünü verdi parka. Bir yaxşı oturacaq taparaq, torbasını başının altına qoyub uzandı. Uzanan kimi Kosanı yuxu apardı.

Birdən Kosa səsə diksinib ayıldı. Yuxulu gözlərini ətrafa gəzdirdi. Gördü ki, oturacağın ətrafında bir neçə sahibsiz it dayanıb ona baxır. Bunu görən Kosa tez torbasını götürüb oradan uzaqlaşdı. İtlərin qorxusundan tez-tez arxaya baxan Kosa qəflətən yolun ortasındakı ağzı açıq quyuya düşdü. Bir təhər quyudan çıxanda qolundan, qılçasından qan axdığını gördü. Tez boş torbasının cındırından bir az cırıb yaralarını sarıdı. Kosa ufuldaya-ufuldaya gecəni bir təhər yola verib səhəri gözləməyə başladı.

Səhər açıldı. Kosa yolda pul itirmiş adamlar kimi gəzirdi. Birdən gördü ki, əllərində gül dəstələri tutmuş balaca uşaqlar gedir. Kosa da onların dalınca getməyə başladı. Uşaqlar ikimərtəbəli ağ bir evin qarşısına çatanda yavaş-yavaş qapıdan içəri girdilər. Kosa da dayanmadan uşaqların arxasınca içəri keçdi. Kosaya elə gəldi ki, bura şah sarayıdır. Kosa divarlarda pionerlərin əli ilə işlənmiş rəsm və əl işlərinə baxırdı. Birdən fikirdən ayılanda uşaqları görmədi. Onları axtara-axtara ikinci mərtəbəyə qalxdı. Səs gələn tərəfə getdi. Səs açıq qapıdan gəlirdi. Kosa açıq qapıdan içəri boylandı və gördü ki, içəridə çoxlu uşaq var. Orta da isə balaca bir qız uşağı «Novruz» bayramına aid şeir söyləyir.

Kosa gördü ki, uşaqlar Kosanı çağırır. Kosa təəccüb qarışıq sevinclə içəri

girdi. Uşaqlar naməlum kişini görəndə bir anlığa dayandılar...

## QOÇAQ DOVŞAN VƏ TAMAHKAR AYI

Qalın bir meşədə ağıllı, cəsarətli və qoçaq bir dovşan yaşayırdı. Dovşan həmişə zəhməti ilə dolanardı. Zirzəmisi kələm, kök, buğda və cürbəcür otlarla dolu olardı. Dovşanın acgöz, tənbəl bir qonşusu var idi. O gün olmazdı ki, qonşusu ayı ondan bir şey istəməsin. Xeyirxah dovşansa heç nəyini qonşusundan əsirgəməzdi. Olanından qonşusuna da verərdi. Ayının isə dovşanın bol varına həmişə paxıllığı tutardı. Bir gün ayı öz-özünə dedi: «Gərək dovşanla bəhs edəm. Dovşan kimi varlı olam».

Baharın gözəl vaxtı idi. Dovşan arı

pətəkləri ilə dolu 5-6 qutu gətirib güllü-çiçəkli bağçasına qoydu. O gündən dovşanın arıları ətirli çiçəklərin dadlı nektarına qonaq idi. Əvəzində isə dovşan arıların dərman balından doyunca yeməyə başladı. Bunu görən ayının könlünə bal düşür. O da istəyir ki, bal yesin, lakin ayının bu fikri baş tutmur. O həm ərinir, həm də arıların sancmağından qorxur. Tamahını saxlaya bilməyən ayı məcbur olur ki, oğurluq etsin. Gözləyir ki, axşam düşsün. Hava qaralan kimi özünü dovşanın bağçasının kənarına çəkilmiş daş hasarın dibinə yetirir. Birtəhər hasarı aşıb bağa girərək yavaş-yavaş qutulardan birinə yaxınlaşıb ağzını açır. Zəhmətkeş arılar birdən duyuq düşürlər ki, onları narahat edən dovşan deyil. Kimdisə pis niyyətlə gəlibdir. Tez işçi arılardan biri vızıltı ilə

havaya uçaraq qarnını açıb, yığa-yığa bütün qutulardakı arıları xəbərdar etdi... Arılar bir anda «nizələrini» çıxardaraq qutunu tərk etdilər. Onlar acgöz və paxıl ayını o qədər sancdılar ki, ayı özünü zorla hasardan çölə ata bildi. Tamahkar ayı oradan bir başa daxmasına qaçdı. Ayının üz-gözü şişib şar kimi olmuşdu. Ayı ufuldaya-ufuldaya köhnə daxmasında öz-özünə hələ də donquldanırdı.

*24.03.1991*

## CANAVAR OVUNU NECƏ OVLAYIR

Dərs ilinin sona yetməsinə bir həftə qalmışdı. Zəng içəri vurulmuşdu. 6-cı saat zoologiya dərsi idi. Dərsi uşaqların çox sevdiyi Kamil müəllim deyirdi. Ha-

mı parta arxasında əyləşib müəllimi gözləyirdi. Birdən Kamil müəllim qapını açıb içəri daxil oldu. Uşaqların sifətinə sevinc və təbəssüm yayıldı. Müəllim salam verib stula əyləşdikdən sonra dedi:

- Uşaqlar, necəsiniz? Kitabları da yığıblar. Bəs nə eləyək?

Şagirdlər bunu gözləyirlərmiş kimi bir ağızdan dilləndilər:

- Müəllim, xahiş edirik, bizə bu gün uşaqlıq illərinizdən danışasınız. Kamil müəllim uşaqların xahişini yerə salmaq istəmədi. Axı, onun üçün də maraqlı olardı. Müəllim sözə başladı:

- Uşaqlar 1951-ci il olardı. Onda mən birinci və ya ikinci sinifdə oxuyardım. Doğulduğum yer Cəbrayıl rayonudur. Oralar gözəl meşəli, dərə-təpəli, bir sözlə mənzərəli bir yerdir. O vaxtlar in-

diki kimi daşdan evlər yox idi. Hamı qamışdan, çiy kərpicdən özünə ev tikərdi. Bizim evlərimiz meşəyə yaxın idi. Meşə də çox böyük meşə idi. Özümün də 3 qoyunum, 2 keçim var idi.

Mən adətən həmişəki kimi meşənin qırağından 5-6 ağac boyu, meşənin içərisində həmin heyvanları otarırdım. Başımı qatmaq üçün fındıq kolundan bir budaq kəsib yonurdum. Meşədə kol-kos xirtdəkdən idi. Keçinin biri kolun o biri tərəfində otlayırdı. Aradan bir az keçmişdi ki, kolun o biri üzündə it ulamağı eşitdim. Əlimdəki çubuqla kolu aralayıb baxdım. Gördüm 3 canavar düz mənə tərəf gəlir. Qorxu canımı bürüdü. Fikirləşdim ki, bu saat qoyunlar hürküb qaçacaq, canavarlar isə duyuq düşəcəkdir. Canavarlar getdikcə yaxınlaşırdılar. Birdən kolun o biri tərəfində otlayan keçi

mələdi. Bunu eşidən canavarlar qulaqlarını şəkləyərək ətrafa diqqətlə göz yetirəndə keçi onların gözünə dəydi. Onlar keçini görən kimi onu dövrəyə aldılar. Qorxudan tir-tir uçunurdum. Deyirdim ki, qoyunlar hürkən kimi, qoyunları tuta bilməsələr də məni parçalayacaqlar.

Səsimi çıxartmayıb canavarları izləməyə başladım. Canavarlar ovlarını çox qəribə ovlayırlarmış. Canavarların içərisindən bir irisi qəfil irəli çıxaraq iki sıçrayışla keçinin boynundan yapışıb kürəyinə atdı. Deməli həmin yekə canavar canavarların böyüyü imiş. Elə ki, keçini dalına atıb qaçmağa başladı, qalan iki canavar da həmin canavarın dalınca götürüldülər. İrəlidə gedən canavar qaça-qaça keçidən bir cəngə ət qoparıb arxada gələn canavarlara tullayırdı.

Beləcə bir-birinə əti tullaya-tullaya keçini hamısı birlikdə yeyib qurtardılar. Müəllim bu şirin söhbətinin arxasınca «Elman, ağzını açıq qoyma, milçək girər» cümləsi uşaqları söhbətdən ayırıb gülüşdürdü.

*06.07.1991*

## MUŞTULUQ

Nərgiz babası ilə bağda güllərə qulluq eləyirdi. Nərgiz gülləri sulayır, babası isə diblərini yumşaldırdı. Birdən bir ana sağsağan uçaraq gəlib bağçanın kənarındakı dirəklərdən birinin başına qondu və başladı ucadan qarıldamağa. Nərgiz maraqla babasına dedi:

- Babacan, yəqin cücə yeməyə gəlib. Qovum?!.

Baba sakit-sakit, gözünü saxsağandan çəkmədən dilləndi:

- Yox qızım, qovma.

- Niyə? - deyə Nərgiz babasından soruşdu.

- O pis niyyətlə gəlməyib, deyəsən şad xəbər gətirib. Mən bunu balaca vaxtlarımda nənəmdən eşitmişəm. Söz babanın ağzından çıxmamışdır ki, sağsağan uçub gözdən itdi. Elə bil sağsağan babanın dediklərini anlamışdı.

Bir azdan Nərgizlə babası işlərini qurtarıb nahara getdilər. Baba üzünü Xavər nənəyə tutub dedi ki, qapı-bacanı təmizləyin, evə qonaq gələcək.

Birdən yenə də həmin ana sağsağan əvvəlki yerində görünməyə başladı. Babanın sözünü nəvəsi Nərgiz də təsdiqlədi. Nənə ilə nəvə dincəldikdən son-

ra başladılar qapı-bacanı təmizləməyə. Baba isə bağçaya işləməyə getdi.

Aradan bir az keçmişdi ki, qapıda maşın siqnalı eşidildi. Nərgiz sevincək əlindəki süpürgəni yerə qoyub qapıya tərəf yüyürdü. O, maşının siqnalından bildi ki, gələn atasıdır. Nərgiz sevincək «bəs, anam hanı?» deyib atasını qucaqladı. Ata balaca Nərgizin üzündən öpüb dedi:

- Qayıdacağıq.

- Nə olar, bir gün də artıq qalaq də!

- Yox qızım, olmaz, məktəb açılır. Axı sən bu il birinci sinfə gedəcəksən. Evə gedəndə görərsən səninçün nələr almışıq. Nərgizin kefi yenə də açılmadı. O, dodaqlarını büzərək sakit-sakit dilləndi:

Atacan mən kənddə oxumaq istəyirəm, şəhərə getmək istəmirəm. Elə bu

vaxt baba onları qarşıladı. Birdən babanın gözünə dirəyin başında oturmuş bayaqkı ana sağsağan sataşdı. Baba təbəssümlə nəvəsinə dönərək dedi:

Qızım, gördünmü sözüm düz çıxdı. Bu zaman Xavər nənə də özünü yetirdi. Onlar gəlib stolun arxasına keçdikdən sonra nənə stola çay-çörək gətirdi. Babanın gözünə yenə də ana sağsağan həminki yerində dəydi. Baba stolun üstündəki çörəklərdən bir dilik götürüb, dirəyin dibinə qoydu. Babanın oradan aralanmağıyla sağsağanın çörəyi götürüb gözdən itməsi bir oldu. Nərgiz maraqla babasından soruşdu.

- Niyə belə etdin, babacan?

Baba sağ əli ilə bığlarını sığallayıb, aramla nəvəsinə cavab verdi:

- Qızım gördünmü, o bizdən muştuluq payını almamış getmədi. Bəlkə də

ana sağsağan bizdən aldığı həmin muştuluq payını aparıb balalarına verəcəkdir.

*13.06.1991*

## HAMISINDAN YAXŞISI

Babacan olmaz ki, biz də başqaları kimi hazırın yiyəsi olaq? - deyə bala dozanqurdu yumurlayıb ləkin qırağına çıxartdığı peyinin üstündə oturdu.

- Olar, balaca, olar! Niyə olmur ki, amma hamısından yaxşısı öz zəhmətinlə dolanmaqdır. Baba dozanqurdu cavab verdi.

- Axı bunun harası yaxşı oldu? Bala dozanqurdu etiraz etdi. Biz bu istinin günündə ləkdə peyin diyirləyirik, amma danadişi, sarı-cücü, nə bilim başqaları

isə bostanın altından vurub, üstündən çıxırlar.

Nəvəsini başa sala bilməyəcəyini görən baba dozanqurdu daha sözünün dalını gətirməyib, ayağa qalxdı ki, yollarına davam etsinlər. Elə bu zaman uzaqdan gələn çığırtı, haray-həşir «Ay-haray qoymayın! Kömək edin, kömək!» sözləri onları yoldan saxladı. Ləkin içi ilə gələn su düzü-dünyanı ağzına almışdı. Qəfil "seldən" canını birtəhər qurtaran danadişi özünü ləkin kənarına güclə çatdırdı. İşin nə yerdə olduğunu bilən baba dozanqurdu danadişinin halını sordu və gülümsəyərək çönüb nəvəsinin üzünə baxdı. Nəvəsi isə ləkin içi ilə gəlməkdə olan zəhərli sudan həlak olmuş danadişilərə baxmaqda idi. Birdən onların üstünə düşən kölgə bala dozanqurdunu fikirdən ayırdı. Bu bostanın yiyəsi

insan idi. O, əyilərək ölmüş danadişilərlə birlikdə dozanqurdları da götürdü:

- Bu ki, dozanqurdudur deyib, əlindəki danadişiləri yanındakı vedrəyə tulladı. Dozanqurdları isə ləkin üstünə qoyub iri addımlarla oradan uzaqlaşdı. Nəvəsinin hələ də özünə gələ bilmədiyini görən baba dozanqurdu dedi:

- Gördünmü, mənim balam, oğrunu adı ilə tanıyırlar. Gərək pis adı nəslinə, kökünə qazanmayasan. Zəhmət çəkmədən yaşayanların axırı həmişə belə olur. Bax, hamısından yaxşısı budur, deyib üstündə oturduğu peyin yumrusunu ləkin kənarı ilə ağzı aşağı diyirləməyə başladı.

*25.06.1991*

# ƏL İŞLƏRİNDƏN NÜMUNƏLƏR





**Əbülqasım FİRDOVSİ**



**Nizami GƏNCƏVİ**

**İmadəddin**
**NƏSİMİ**





**Məhəmməd**
**FÜZULİ**



**Molla Pənah**
**VAQİF**



**Seyid Əzim**
**ŞİRVANİ**

**Aleksandr Serqeyeviç PUŞKİN**





**Maksim QORKİ**

**Mirzə Ələkbər SABİR**





**Səməd VURĞUN**



**Üzeyir HACIBƏYOV**



***İ.Əfəndiyev, "Şəhərdən gələn ovçu"***



***Fərhad dağ çaparkən.***
***N.Gəncəvinin "Xosrov və Şirin" poeması.***



***Leyli və Məcnun məktəbdə.***
***M.Füzulinin "Leyli və Məcnun" əsəri.***



***XIX əsrin xalq qəhrəmanı***
***Qaçaq Nəbi.***

# RƏYLƏR

# ÇƏTİN YOLUN İLK ADDIMI



Qarşımda əlçim boyda bir kitab var. Anar Fazilzadə. "Zaman dəyişib" (Gəncə, 2000.) Bu əlçim boyda kitabın içərisi ilə tanış oluram. Tanınmış uşaq şairi Ələsgər Əlioğlunun kiçik "Səmimi hisslər" adlı ön sözü ilə açılan kitab Anarın yaradıcılıq aləmindən az-çox məlumat verir. Şeir və hekayələrin altında yazılma tarixinə baxıram. Yaş dövrü ilə hesablayanda görürsən ki, kitabdakı bədii məhsulun hamısı Anarın orta məktəb illərinə düşür.

1977-ci ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olan Anar orta məktəbin altıncı sinfində oxuyanda

yaradıcılığa meyl etməyə başlayıbdır. Orta məktəbdə Anarın müəllimi kimi balaca qələm sahibinin əksər yazıları mənim gözüm önündə ərsəyə gəlibdir. Anarın ilk bədii yazısı-hekayəsi olan “Yuxu” “Pioner” jurnalının 1990-cı il VII sayında işıq üzü görübdür. “Gülnar və arılar” adlı ikinci hekayəsi isə “Pioner” jurnalının 1990-cı il XI-XII sayında çap edilibdir. Sonra isə Beyləqan rayonunda çıxan “Beyləqan” adlı qəzetdə şeirləri və şeirləri haqqında kiçicik resenziyalar özünə yer tapa bilmişdir. “Zaman dəyişib” kitabında müəllifin 14 şeiri və 11 hekayəsi çap olunubdur.

Yazılarında kiçik yaşlı bir uşağın təbiətə və cəmiyyətə baxışlarının bədii əksi özünü tapmağa çalışmışdır. Həqiqət naminə desək hekayələr öz bədii tutumu ilə şeirlərdən seçilir. Bir məsələni xüsusi

qeyd etmək lazımdır ki, Anarın bu kövrək hissləri Azərbaycanda azadlıq ideyalarının gücləndiyi, zamanın nehrə kimi çalxalandığı bir dövrə təsadüf edir. Uşaq təfəkkürü ilə televiziya, mətbuat və müəllimlərdən aldığı informasiya qarşılığında cəmiyyətdə baş verən hadisələri bədii süzgəcdən keçirib öz fikrində "azmamaq" cəsarəti ilə bərabər, qabiliyyətdə tələb edir. "Zaman dəyişib" şeirində 13 yaşlı qələm sahibi ictimai-siyasi proseslərə öz münasibətini-poetik münasibətini belə ifadə edir:

*Görəsən azaddırmı*
*fikirdən,*
*dərddən,*
*qəmdən,*
*Səmada buludlar arasında*
*süzən qartal.*

O dövrü xatırlayanlar bilirlər ki, o zaman hamı stress vəziyyətində idi. İnformasiya bolluğunda boğulan cəmiyyət öz axarını tamam itirmişdi, hamı dərd-qəm kasasına çevrilmişdi. Anar uşaq marağı ilə ritorik sual qoyur həm özü, həm də oxucu qarşısında: "Görəsən, heç olmasa ənginliklərdə qanad çalan Qartal fikirdən, dərddən və qəmdən azaddırmı?"

Şeirin sonrakı misralarını oxuyanda məlum olur ki, cəmiyyətdə baş verən bu xaotik vəziyyət öz təsirini, hətta heyvanlara da göstəribdir. "Azadlıq! Aşkarlıq!" şüarı cəmiyyətin süstlüyünü oyatdığı kimi heyvanların da süstlüyünə öz təsirini göstəribdir. Artıq çanaqlı bağa da çanağını tullayaraq gizli gəzmək istəmir, canavar da ceyranın izincə getmir. - "Qoy özü gəlsin mənim yanıma" deyə

düşünür. Məgər ceyran bilmir ki, təbiət onu canavar üçün yem yaradıbdır. Müəllif şeirin axırında gəldiyi nəticəni belə yekunlaşdırır:

*Bir əməldir indi doğulan,*
*indi yaranan,*
*Beş yaşlı uşağa da allanır*
*dünyagörmüş bir qocaman.*

Uzun illər tikanlı məftillər arxasından dünyaya boylanan sovet adamları sərhəddin tikanlı hasarları götürüləndən sonra təfəkkür aləmində olan çevrilişi - müasir dünyanın elmi-texniki və incəsənət sahəsində olan yüksəlişini-dünyagörmüş qocaman imperiya adamının müstəqillik uğrunda ayağa "qalxan" beş yaşlı uşağa aldanması təzadlı dövrün hadisələrindən baş çıxarmağı bacaran oxu-

cu diqqətini çəkməyə bilməz. “Zaman dəyişib” şeirində kiçik yaşlı şairin qarşıya qoyduğu ideyanı hardasa zaman 10 ildən sonra özü təsdiq etdi. Bu Anarın qələm sahibi kimi 10 il sonranı görmək fəhmindən irəli gəlir.

Anarın poeziya nümunələri içərisində iki şeiri dövrünə görə öz aktuallığı ilə daha çox diqqəti cəlb edir. Azadlıq aşiqi Xəlil Rza Ulutürk 1990-cı il hadisələri zamanı Lofertovo həbsxanasında yatdığı zaman bütün Azərbaycan xalqı bu azadlıq nəğməkarının müəmmalı taleyi ilə maraqlanırdı. O cümlədən uşaqlar da. Anarın “Xəlil Rza ömrü” və “Atlı Xəlil Rza” şeirləri də xalq şairinə olan kiçik yaşlı bir məktəblinin bədii təcəssümüdür. Uşaq təfəkkürü ilə Xəlil Rza ömrünün uzunluğunu çaylarla, göylərlə müqayisə edən müəllif azadlıq ideyaları

uğrunda Xəlil Rza dönməzliyini Babəklə, Nəsimi ilə müqayisəyə çəkir. Şair inanır ki, Xəlil xalqın azadlıq arzularının məhv edilməsinə öz qələmi ilə bir sipər çəkəcəkdir. Dünyaya sığmayan şair qəzəbinin zindana sığmadığını, hətta zindanı dağıtdığını iki misrada belə mənalandIrır:

*Dağıtdı qəzəbinin tufanı,*
*Dəmir, qaranlıq, nəm zindanı.*

Sonrakı misralarda isə şairin azadlıq yolunda keçdiyi keşməkeşli həyat yoluna bədii sözün gücü ilə güzgü tutur:

*"Azərbaycan" deyəndə,*
*Dili ağzında qurusa da,*
*Qeyrəti uğrunda zəhər içdi,*
*Ağzı gəldi baltək dada.*

*Bəslədiyi dünyasına*
*əbədiyyət qatarında*
*bələdçitək yola düşdü,*
*Halal olsun!*
*Halal olsun!*
*Xəlil Rza ömrü!!!*

**("Xəlil Rza ömrü")**

Göründüyü kimi şairin həbs olunub Moskvaya yola salındığı qatarı, müəllif "əbədiyyət qatarı" adlandırır. Anar uşaq təxəyyülü ilə düzgün görürmüş şairin ömür yolunu. Xəstə şairi bir ildən artıq zindanda saxlamaq sonralar öz işini gördü. Azadlığa buraxılandan sonra az yaşadı, Ulutürk. Çünki zindan öz "xeyirxah" işini görmüşdü.

İkinci şeri olan "Atlı Xəlil Rza" şeirində Anarın daha çox folklordan faydalandığı diqqətdən yayınmır.

Şeirdə Koroğlunun, Qıratın, Məlik Cümşüdün, qızıl almanın, qızıl ağacın, Zevsin, Prometeyin adlarının çəkilməsi və Xəlil arzularının həqiqətə çevriləcəyinə folklor gözü ilə baxan şairin daxili inamına oxucu inanır. Bu inandırmaq bacarığı məktəbli qələminin inamından irəli gəlir:

*Eşit, ey Xəlil!*
*Əgər çıxsa yoluna bir qarı,*
*əl vermə ona.*
*O imperiyadı girib dona,*
*səni yıxmaq üçün*
*Çıxıb yoluna.*

İmperiyanı ikiüzlü, hiyləgər, tilsimkar qarı ilə müqayisə edən Anar məsləhət görür ki, şair həmin qarıya inan-

masın. Qarı ipək donda görünsə də hiyləgərdir:

*Qızıl alma yemək istəyir*
*qəhrəman Xəlil Rza!*
*Qoy cavanlaşsın, poladlaşsın,*
*şair ömrü.*
*Yazsın yenə də*
*Torpağın taleyini, xalqın dərdini!*
*Gedirik biz, oğurlamağa yox,*
*Döyüşlə*
*od gətirək*
*od Allahı Zevsdən,*
*Cəsur,*
*igid*
*Prometey kimi!*
*O, bilir heç vaxt düşməz*
*Zevsin qanlı toruna.*
*Yoxsa didər onu da*
*Qaf dağında*
*Caynaqlı imperiya qartalları!*

Şair göründüyü kimi azadlığı oğurlamaqla yox, döyüşlə almaq istəyir. Axı kiçik şairin ustadı olan Xəlil Rza azadlığı əgər döyüşlə almaq istəyirsə və bunun ayrı yolunu görmürsə, başqa azadlıqsevərlər kimdir ki, bu ideyanın arxasınca getməsinlər? Hər iki şeir Xəlil yaradıcılığına və Xəlil qələminə məhəbbətin, istəyin və daxili bir marağın tələbindən yaranmışdır. Bu ideya oxucu inamına qarmaq verir ki, Anar gələcəkdə Xəlil Rza poeziyasının və Xəlil Rza ideyasının layiqli davamçısı olacaqdır. Nə bilmək olur? Həyatdır! Bunu gələcək göstərər.

Kitabda Anarın uşaq düşüncələrinin məhsulu olan, uşaq dünyasına baxışın poetik nümunələrinə də rast gəlmək mümkündür.

*Görünmür çöllərdə bir kəs,*
*Artıq qışdır, qış fəslidir.*
*Əsən küləkləri isə,*
*Qışın soyuq nəfəsidir.*

**("Qış")**

*İsərdim ki, tez gəlsin yaz,*
*Ərisin dağların qarı.*
*Ətraf çiçəklənsin bir az,*
*Gözəlləşsin bahar çağı.*

**("Arzu")**

*Qış tərk etdi torpağı,*
*Gül-çiçəklər boy atdı.*
*Dağları, dərələri*
*Yaz yuxudan oyatdı.*

**("Yaz")**

Yuxarıdakı misralardan qışın, Novruz bayramının və yazın uşaq dünya-

sında oyatdığı təəssürat hiss olunur. Anar gördüyünü qələmə alır. Bu da onun müşahidə qabiliyyətinin hərtərəfli olmasına dəlalət edir.

Uşaq dünyasının maraqlarını uşaq gözü ilə, uşaq düşüncəsi ilə qələmə alan Anar "Arının ağrısı", "Aydının babası", "Günayın şəkli", "Əkiz bacılar" və s. şeirlərində daha dolğun vermişdi.

*Dişlədi, uçdu arı,*
*Bapbalaca Gülnarın,*
*Balaca barmağını.*
*Qızcığaz yalvardı ki,*
*Barmağından çıxartsın,*
*Tez nənəsi ağrını.*

**("Arının ağrısı")**

*Şəlaləylə İradə,*
*Birgə olub anadan.*

*İkisi də elə bil,*
*Bölünüb bir almadan.*

*Gəzəndə ikisi də,*
*Onları səhv salırlar.*
*Seçəmmirlər qızları,*
*Durub çaş-baş qalırlar.*
**("Əkiz bacılar")**

Yuxarıda dedik ki, kitabda Anarın şeirləri ilə yanaşı hekayələri də çap olunubdur. Anar hekayələrində təbiətdə və cəmiyyətdə gördüklərini sənətkarlıq baxımından daha dolğun əks etdirmişdir.

Hekayələri daha bitkindir. Dil sadəliyi, təmizliyi, uşaq dünyagörüşü və uşaq dili ilə danışıq tərzi hekayələrində daha cəlbedicidir.

"Yuxu" adlı hekayəsində müəllif maraqlı süjet xətti qura bilmişdir. Heka-

yədən çox novellaya daha yaxın olan "Yuxu" hekayəsində Azadın yuxuda gördükləri şirin bir dillə oxucuya çatdırılır. Həcmcə kiçik olan bu hekayədə müəllif qarşıya qoyduğu məqsədinə nail ola bilmişdi. Dilin təmizliyi ilə bərabər, canlı xalq dilindən istifadə diqqətdə dayanır.

*"Gecədən xeyli keçmişdi. Çöldə yaman soyuq idi. Havadan qar iyi gəlirdi. Azad pəncərəyə yaxın çarpayıda yorğana bürünərək mışıl-mışıl yatmışdı."* Yuxarıdakı bu nümunə dediklərimizə misal ola bilər.

"Gülnar və arılar" adlı hekayəsində isə təbiətə və heyvanlara qayğı ön plana çəkilir. Balaca Gülnarın arıya qarşı olan hiddətində bir şirinlik var. Uşaq vaxtı kimi arı sancmayıbdı? Hamını. Amma Gülnarı arının sancmasında bir uşaq

sadəlövhlüyü özünü göstərir. O, elə başa düşür ki, arını sığallamaqla, arını çox istəməklə arıya olan məhəbbətini arıya çatdırır. Qardaşı ilə söhbətdən sonra Gülnara hər şey aydın olur.

Həmdə qardaşı ona məsləhət görür ki, arılara qulluq etmək qaydasını Bəkir babadan öyrənsin.

“Əsl zəmanə uşağıdır” hekayəsi ilk ibtidai sinif müəllimi Vaqif Məhər-rəmova ithaf edilibdir. Balaca uşaqla qonaq arasında baş verən söhbətin dia-loq şəklində qurulması hekayəni başqa hekayələrdən fərqləndirməklə bərabər, hekayədə atalar-oğullar və köhnəlik-ye-nilik məsələsinə də toxunulur. Elmi-tex-niki inkişafla bağlı olaraq yeniyetmələ-rin keçmişə arxa çevirməsi yumoristik bir dillə oxucuya çatdırılır. Adətən uşaq-lar hazırcavablığı, dilli-dilavərliyi və

özünəməxsus dünyagörüşləri ilə yaşlıları heyrətləndirəndə istər-istəməz "Əsl zəmanə uşağıdır" xalq ifadəsini işlədirlər. Hekayə həmin xalq ifadəsinin bədii yolla ifadəsidir.

"Yolka qonaqlarının sərgüzəşti" hekayəsində Ağ Ayının, Dovşanın, Dələnin və başqa heyvanların gəmi ilə yolka şənliyinə getmələri və yolda gəminin xarab olması, Göy Balinanın gəmi sakinlərinə olan qayğısı-onların şənliyə vaxtında çatmaları nəql olunursa, "Tülkü və Dovşan" hekayəsində isə Tülkünün hiyləgərliyi və Dovşanın öz ağlı, qabiliyyəti ilə düşmənə qalib gəlməsi nəql edilir.

"Pinti Dadaş" hekayəsində Dadaşın pintiliyi, anasının "nadinc" oğluna tərbiyə verməsi və həmin tərbiyənin içəri-

sində ana məhəbbəti, övlad şirinliyi əsas götürülmüşdü.

"Asəfin kələyi" hekayəsində müəllif Asəf surətində bəlkə də özü işlətdiyi "kələyi" qələmə almışdır. Tənbəlliyi, səhərki dərsi hazırlamaq üçün çəkdiyi "əzab-əziyyətdən" yaxasını qurtarmaq üçün fikirləşdiyi çıxış yolunu "qabiliyyətlə" başa çatdırması oxucuda Asəfə nifrət əvəzinə məhəbbət oyadır. Ona görə ki, balaca vaxtı uşaqların işlətdikləri bu cür üsullar çoxlarına tanış olmaqla bərabər, oxucu Asəf surətində özünün kiçik vaxtlarının müəyyən cizgilərini görə bilir. Hekayənin xoşa gələn tərəfi də elə budur.

Anarın hekayələrinin əksər hissəsində hadisələrin iştirakçısı heyvanlardır. Amma buna baxmayaraq hər bir hekayəsində müəyyən bir tərbiyəvi məsə-

ləyə toxunan müəllif kiçik yaşlıların balaca vaxtlarından cəmiyyət üçün yararlı bir insan kimi yetişməsi bütün hekayələrinin əsas mayasını təşkil edir. “Qoçaq dovşan və tamahkar ayı” hekayəsində özgə hesabına yaşamağı pisləyən yazıçı tamahı ucbatından oğurluq edən ayının aqibətinə gülməklə bərabər, oğurluğa nifrət hissi aşılayır.

“Muştuluq”da folklora əsaslanan Anar balaca Nərgizin maraq dünyasını məharətlə qələmə almağa çalışır. “Hamısından yaxşısı” adlı hekayəsində isə gördüyü hadisəni ictimai baxımdan dolğuncasına mənalandıra bilmişdir.

Baba Dozanqurdu ilə nəvəsi arasında gedən söhbətdən məlum olur ki, - “Babacan, olmaz ki, biz də başqaları kimi hazırın yiyəsi olaq?” fikrinin yanlış olduğunu qəflətən baş verən hadisə özü

daha düzgün izah edir. Təbiət və insan münasibətləri fonunda götürülmüş mövzu və adi görünən hadisə müəllif qələmində açıqlanır. Zərərverici həşərat və alaq otlarını məhv edən insan xeyirxahlıq mücəssəməsi kimi təsdiq edilir. Hekayənin sonunda baba Dozanqurdu hadisəsinin dəhşətindən özünə hələ də gələ bilməyən nəvəsinə üzünü tutaraq deyir: - *"Gördünmü, mənim balam, oğrunu adı ilə tanıyırlar. Gərək pis adı nəslinə, kökünə qazanmayasan. Zəhmət çəkmədən yaşayanların axırı həmişə belə olur"* - fikri oxucuda böyük fransız filosofu Volterin "İş bizi üç bəladan: - avaraçılıqdan, qəbahətdən və ehtiyacdan xilas edir" fikrinin bədii təsdiqi kimi səslənir.

"Canavar ovunu necə ovlayır?" hekayəsi dərs zamanı biologiya müəllimi

Kamil müəllimin danışdığı hadisə əsasında qələmə alınmışdı. Hekayənin maraqlı cəhəti odur ki, yırtıcı heyvan olan canavarın ov zamanı balalarına necə təlim verməsi elmi və bədii baxımdan işıqlandırılmışdır.

Kitabda Anarın hekayələri içərisində həcmcə ən böyüyü “Kosanın bayram səfəri” adlı hekayəsidir. Hekayənin məzmunundan məlum olur ki, hekayə sosializm imperiyasının dağılmağa başladığı ərəfədə qələmə alınıb. Yumoristik səpgidə qələmə alınmış hekayə öz dövrünə görə cəsarəti ilə seçilir. Bir sıra ictimai bəlaları uşaq təfəkküründə süzgəcdən keçirən müəllif cəmiyyətdə baş alıb gedən haqsızlığı Kosa surəti ilə açmağa çalışmış və buna nail ola bilmişdi. Kosa Novruz bayramı şənliyində iştirak etmək üçün Bakıya yola düşür. Yolda Ko-

sanın başına gələn qəzavü-qədər oxucu diqqətindən yayınmır. Bazar iqtisadiyyatının cəmiyyəti birdən-birə iflic vəziyyətinə salması, "aşkarlıq"dan istifadə edərək bir sıra adamların təmiz adamların cibinə "girməsi", "İcarə Volqa" sahibinin, susatanın, milisionerin və başqalarının iç üzü acı istehza ilə açılır. Küçəni düzgün keçməyən Kosa ilə milisionerin arasındakı dialoqa diqqət edək: - *"Kosa arxaya çönəndə bir milisioneri qarşısında dayanmış gördü. Kosa dedi:*

*- Xeyir ola, nə istəyirsən qardaş?*

*- Yol hərəkəti qaydalarını pozmusan. Sən heç məktəbdə oxumamısan?*

*Kosa təəccüblə milisionerin bozarmış sifətinə baxdı və dinmədi. Səni milis şöbəsinə aparmalıyam deyərək, milisioner daha da bozardı.*

*- Ay qardaş, mən tələsirəm axı.*

*- Vətəndaş, sən tələsirsən deyə, mən qanunu pozmalıyam?*

*Kosa gördü ki, yaman yerdə axşamlayıb. Əlini yamaqlı şalvarının cibinə salıb 3 qırmızı onluq (rubl) çıxarıb milisionerin yan cibinə dürtdü.*

*- Bu başqa məsələ, deyən milisioner Kosanın qolundan tutub onu səkiyə çıxardaraq, "yaxşı yol" deyib yola saldı."*

Adi bu detalda müəllif sovet milisinin və cəmiyyətdə baş alıb gedən rüşvətxorluğun iyrənc sifətini oxucu gözündə canlandırır. Elə imperiyanın çökməsinin də səbəbi həmin rüşvət oldu. Rüşvət olan yerdə qanun iflic vəziyyətinə düşür. Bu çoxdan təsdiq olunmuş bir həqiqətdir. Qanunun keşiyində dayananın özü rüşvət alırsa, orada hansı insan hüquqlarından danışmaq olar?

Hekayədə müəllif hadisələri Kosanın şənliyə çatması prosesində verir. Həmin prosesdə cəmiyyətdə baş alıb gedən haqsızlıqlara güzgü tutan yazıçı yadda qalan bir sıra səhnələr yarada bilmişdir.

Kosanın yolda çəkdiyi əzab və əziyyətlər xoş ovqatla sona çatır. Bu xoş ovqatda müəllifin gələcəyə böyük bir inamı var. Həmin inam-gənc nəslin gələcək xoşbəxtliyinin oxucu gözündə yeni səhifələrini açır.

"Zəmanə dəyişib" Anar Fazilzadənin ilk kitabıdır. Bu ilk kitabı biz yeni uçuşa hazırlaşan körpə qaranquşun kövrək qanadları ilə müqayisə edə bilərik. Anar da sənət aləmində ilk-kövrək addımlarını atır, bu kitabı ilə. Sözsüz ki, bu çətin yolda müəllif müxtəlif maneələrə rast gələcəkdir. Amma həmin ma-

neələr müəllifi qorxuzmasın. Çünki zirvəyə gedən yol heç vaxt asan olmayıbdır. Əgər həmin yol asan olsaydı, onda zirvəyə can atanların sayı da çox az olardı.

Bu yolda - sənətə gedən bu ilk addımda Anara uğurlar arzulayırıq.

*19. 08. 2000*
***Fazil SƏNAN**,*
***Yazıçı-publisist.***

# SƏMİMİ HİSSLƏR



Anar Fazilzadə həm şeirlər yazır, həm də hekayələr. Onun qələmindən çıxan nümunələrdə yaşadığımız həyatın ağrı-acıları, ziddiyyətləri, narahatlıqları və s. öz əksini tapır. Anarın poeziyasında da uğurlar var, nəsrində də.

Anar Fazilzadənin «Zaman dəyişib», «Xəlil Rza ömrü», «Atlı Xəlil Rza» və s. şeirlərində vətəndaşlıq hissi daha güclüdür:

*Xəlil gedir dünyanın axırına,*
*düşüb xalqın axarına.*

*Qızıl alma dərmək istəyir*
*qızıl ağacdan,*

*Qılıncla, qalxanla,*
*qələmlə, vərəqlə.*
*Su gətirmək istəyir ələklə,*
*«azadlıq», «suverenlik» arxından.*
*Qızıl alma yemək istəyir*
*qəhrəman Xəlil Rza!*
**«Atlı Xəlil Rza»**

A.Fazilzadənin uşaqlar üçün qələmə aldığı «Qış», «Arının ağrısı», «Qış gecəsi», «Yaz» şeirləri də balacaların rəngarəng dünyasını özündə əks etdirir.

A.Fazilzadənin hekayələri də cəlbedicidir. Bu hekayələrdə canlı danışıq dili olduqca təbii bir axarda verilmişdir. Kitaba daxil edilən «Yuxu», «Gülnar və arılar», «Tülkü və dovşan», «Pinti Dadaş», «Asəfin kələyi», «Kosanın bayram səfəri», «Canavar ovunu necə ovlayır?» və s. hekayələri bədii durumu

ilə seçilən nümunələrdir. Biz A.Fazilzadəyə yaradıcılıq uğurları arzulayırıq. Qoy o, ədəbi aləmdə öz dəst-xətti ilə seçilən bir qələm sahibi kimi oxucuların qəlbinə yol tapsın!

*07.04.2000.*
***Ələsgər ƏLİOĞLU,***
***şair-publisist.***

# ÇƏTİN YOLUN BAŞLANĞICI



Anar Fazilzadə bədii yaradıcılığa şagirdlik illərindən başlamışdır. “Yuxu” adlı ilk hekayəsi “Pioner” jurnalının 1990-cı il VII sayında çap ediləndə müəllifin 13 yaşı var idi. Sonralar isə müxtəlif dövri mətbuatda şeir və hekayələri çap olunduqca orta məktəb şagirdinin bədii yaradıcılığa olan həvəsini daha da, artırmağa başladı. Xoşbəxtlikdən Anar elə bir dövrdə yaradıcılığa başlamışdır ki, özünün dediyi kimi “səmada süzən qartal da”, sularda “üzən balıqlar da” sanki azadlıq kimi şirin bir neməti dadmışlar. Dünyada sonuncu im-

periyalardan biri dağılırdı, insanlar azad nəfəs almağa başlayırdılar. Bu sevinci, nəşəni dadanlardan biri də gənc şairin özüdür və o, “Zaman dəyişib” şeiri ilə azadlığın gəlişini tərənnüm edir, onun sanki bütün canlılara göstərdiyi təsirdən ruhlanır. Təzə dövranın, yeni eranın ab-havası ilə nəfəs alan Anarın qəlbi müstəqillik ideyalarından, bu ideyaların reallaşması üçün mübarizəyə qoşulan xalqımızın əzmkarlığından fərəh hissi ilə dolur. Bu hiss “Xəlil Rza ömrü”, “Atlı Xəlil Rza” şeirlərinin yaranmasına səbəb olur. Həmin şeirlər ədəbi ictimaiyyət arasında populyarlaşır və çətin yolun başlanğıcında dayanan yeni dövranın gəncindən, onun tutduğu şərəfli yoldan xəbər verir.

Xalq çətinlik, seçim qarşısında qalanda öz qəhrəmanını yetişdirir. Qəhrə-

man qeyri-adi insan olur və xalqı öz arxasınca aparır. Koroğlu kimi, Janna Dark kimi, Cövhər Dudayev kimi. Fərqi yoxdur bu qəhrəman nə ilə vuruşacaq: - qılınclamı, top-tüfəngləmi, qələm iləmi. Xəlil Rza qələmi ilə imperiya qartalları ilə döyüşə girən, xalqı arxasınca aparıb, qalib gələn və öz fiziki ölümü ilə də böyük ideallara pərəstiş hisslərini gücləndirən qəhrəmanlardandır. Anarın yuxarıda adlarını çəkdiyimiz şeirlərindən çıxan nəticə budur.

Müstəqillik, milli dirçəliş yolunda qarşımıza istər xarici, istərsə daxili qüvvəllər tərəfindən nə qədər maneələr çıxıb, nə qədər çətinliklərlə qarşılaşırıq. Özümüzü dərindən dərk etmirik, hər cür nöqsana biganə olmaq, bilə-bilə özümüzə qəsd etmək, içimizdəki qurdların hərəkətlərinə laqeydlik göstərmək və s.

Anarın "Öküz ağa" şeirini oxuduqda həyatın hər sahəsində buraxdığımız nöqsanlar barədə düşünməli oluruq. Şeirdə göstərilir ki, həmişə Öküzə axmaq deyən, onu qanmazlıq, kobudluq simvolu kimi qəbul edən adamların birdən-birə Öküzə münasibəti dəyişir. Niyə? Çünki Öküz vəzifəyə minir. Bundan sonra ona canıyanımcıllıq göstərənlərin sayı çoxalır, hətta "Xanım Dana"da onun həyat yoldaşı olur.

Anarın şeirlərinin çoxunda düşündürücü mətləblərə toxunulur. "Günün şüası" şeirində göstərilir ki, hər gün səhər çağı hərə bir qayğı ilə yaşayır, hətta dovşan ovçunu azdırmaq, pələng ovunu axtarmaq, ana gürzə balalarına yem axtarmaq qayğısına qaldığı halda bəs tənbəllər nə edir?

*Düşdü sonra gün üzünə,*
*Balaca tənbəl Mirzənin.*
*O da qalxmayıb yuxudan,*
*Çöndü o biri üzünə.*

Çətin yolun başlanğıcında görünür Anar üçün janr məhdudluğu olmayacaq. O, düşündürücü şeirlər yazdığı kimi, qələmini hekayə janrında da sınayır. Onun hekayələri qısa, yığcam olmaqla möcüzəli, maraqlı uşaq aləminin müxtəlif cəhətlərini əks etdirir. Müəllif uşaqların yaş və bilik səviyyələrini nəzərə alaraq elə məsələlərə toxunur ki, bunlar böyüməkdə olan gənc nəslin milli şüurunun inkişafına təsir göstərsin. "Kosanın bayram səfəri" bu cəhətdən səciyyəvidir. Kosa milli adətlərimizin bir simvolu kimi qələmə alınır və hekayə uşaqları milli dəyərlərə hörmət və məhəbbətə səs-

ləyir.

Əminik ki, Anar Fazilzadə bu yaxınlarda çapdan çıxmış ilk kitabı olan "Zaman dəyişib"lə çətin yolun başlanğıcında durub dayanmayacaq, bu yol nə qədər uzun, daşlı-kəsəkli, enişli-yoxuşlu olsa da, o, daha inamla addımlayacaq və yeni-yeni yaradıcılıq uğurları əldə edəcəkdi.

*06.06.2000.*

***Ələmdar FƏRZƏLİ,***
*Filologiya elmləri namizədi,*
*Azərbaycan Aqrar-Ekologiya İnstitutu.*
*İbtidai təhsilin pedaqogika və*
*metodikası kafedrasının müdiri.*
*"Azərbaycan ordusu" qəzeti.*
***24.08.2000***

# UĞURLAR DİLƏYİRİK



Uşaqlar üçün yazmaq, uşaq təxəyyülünü öyrənmək, onun qəribəliklərlə dolu həyatına baş vurmaq o qədər də asan deyil. Axı, uşaqlar dünyanın bütün hadisələrinə sualdolu nəzərlə baxır, hər şeyin cavabını tapmağa çalışırlar. Bu sualların cavabları isə o qədər real və inandırıcı olmalıdır ki, balacalar buna inansınlar, öyrənsinlər və düşünsünlər.

Anar Fazilzadə tələbədir. İlk qələm uğurları göstərir ki, o bədii sözə, bədii fikrə tələbkarlıqla yanaşır. Onun uşaqlar üçün yazdığı şeirlər və təmsil-hekayələrdə düşündürücü məqamlar az

deyil. Hekayələrində hadisələri lakonik təsvir etməyə təşəbbüs göstərir və çox vaxt buna nail olur. Onun hekayələrinin balaca qəhrəmanları təbiətin sirlərini öyrənməyə, təbiətlə birgə qalmağa can atırlar.

Əlbəttə, Anarın ilk qələm təcrübəsi olan şeirləri və hekayələri nöqsanlardan da xali deyil. Anar xüsusən hekayələrinin bədii üslubuna ciddi fikir verməli, özünü tapmaq üçün çalışmalı və öyrənməlidir.

Anar Fazilzadə imzası inanırıq ki, balaca oxucuların yaddaşında qalacaq, onun ilk kitabı, ilk addımı kimi uğurlu olacaqdır. Bu çətin və şərəfli yolda gənc müəllifə uğurlar diləyirik.

*25.04.2000.*

***İnqilab İSAQ,***

***Şair-publisist.***

# OT KÖKÜ ÜSTƏ BİTƏR



Bu günlərdə Anar Fazilzadənin ədəbi aləmə ilk məhsulu əlimə düşmüşdü. Oxudum. Orta məktəb illərinin məhsulu olan şeir və hekayələri xoşuma gəldi. Sonra öyrəndim ki, Anarın atası və əmisi də ədəbi yaradıcılıqla məşğul olan yoldaşlardır. Ulularımızın "Ot kökü üstə bitər" deyimi fikrimdən keçdi. Kitabın məndə oyatdığı təəssüratı oxucularla bölüşməyi oxucu kimi özümə borc bildim.

Ədəbi aləmə ilk addımınız mübarək Anar Fazilzadə! Sizin yenicə çapdan çıxmış "Zaman dəyişib" ilk kitabınızı oxuyub tanış oldum. Şeirlərinizi oxuyar-

kən şairanə düşüncə tərziniz, müşahidə bacarığınız, hadisələri ümumiləşdirmək qabiliyyətiniz, inkarolunmaz bədii tapıntı məqamları məni onlar haqqında danışmağa vadar etdi.

*Görəsən azaddırmı*
*fikirdən,*
*dərddən,*
*qəmdən,*
*Səmada buludlar arasında*
*süzən qartal...*
**("Zaman dəyişib")**

Bu şeir sənin şerindir. Sənin şairanə düşünmə qabiliyyətinin məhsuludur. Sən bu şeiri bu gün yola salırsan, sabah isə o səni qarşılayacaq başına topladığı oxucu kütləsi ilə. İnan buna Anar Fazilzadə!

*Qartal ac qalır,*
*dostluq edir,*
*kəkliklə,*
*siçanla.....*

“Zaman dəyişib” şeirindən nümunə gətirdiyimiz bu misralarınızda Zaman yaşayır. Bizim qayğı yükümüzə tab gətirən, dərd-sərimizə şərik olan, qoynunda yaşadığımız Zaman! Dərdin-qəmin həddən artıq bol olduğu, ahü-nalənin ərşə qalxdığı Zaman! Bu misralar tarixin faciəsini, dövranın ağrısını təşkil etmirmi?!

Həyatda hər şey dəyişir və dəyişikliyə məruz qalır. Bütün bunlar zamanın dəyişməsi, vaxt axımı ilə həmahəng şəkildə onun hökmü və diqtəsi qarşısında baş vermirmi?!

Qartal xalq deyimlərində və bədii

ədəbiyyatımızda vüqar, ləyaqət, ucalıq, yüksəklik və zirvə rəmzi ifadə edir. Bəs səbəb nədir ki, Qartal yüksəklikdən aşağıya enir, zirvədən dərəyə dığırlanır, vüqarlığında vüqarsızlığa düçar olur, ümumiyyətlə simasızlaşmaya məruz qalır?

Bəli, Anar Fazilzadə, buna səbəb Zamanın dəyişməsidir. Çox aşağılarda uçan sərçələrin müəyyən zaman kəsiyində Qartala meydan sulamasının şahidi olmuruqmu? Zamanın dəyişməsi Qartalı da qayğı yükü ilə yükləyir. O ac qalır. Ehtiyac və aclıq Qartal vüqarını sındırır, onu siçanla dostluq etməyə vadar edir və Qartalı simasızlaşdırır.

Beləliklə, Anar Fazilzadə, xarakterin Zaman qarşısında əriməsinin şahidi olmuruqmu? Bizcə Zamanın dəyişməsi tarixi bu günün gözü ilə mühakimə etməkdir.

İndiki problemlərin, maddi və mənəvi ağrıların kökündə tarixi keçmişdə buraxılan səhvlər durmurmu? Görünür gənc şairi narahat dünyamızın problemlərinin həllində Zaman qarşısında səhvlərə yol verməmək fikirləri düşündürür. Gələcək nəsillər qarşısında öz milli, mənəvi və vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirməyi bizlərə çağırış deyilmi?

"Atlı Xəlil Rza", "Xəlil Rza ömrü" və s. şeirləri Azərbaycanın istiqlal nəğməkarı olan şairimiz Xəlil Rza Ulutürkə həsr edilib. Şeirlərdə şair və imperiya qarşılaşdırılır. İmperiyanın ikiüzlü və hiyləgər olduğu vətəndaşlıq baxımından oxucu diqqətini cəlb edir. Maraqlıdır ki, şair on üç yaşında olarkən qələmə aldığı bu şeirlərində hadisələri düzgün görüb qiymətləndirə bilmişdir.

Anarın kitabda çap edilmiş uşaq

şeirləri də oxucu diqqətini cəlb edir. “Qış”, Aydının babası”, “Günün şüası”, “Günayın şəkli”, “Qış gecəsi” və s. şeirləri yadda qalan uşaq şeirləridir.

“Arının ağrısı” şeirində həyatda ilk addımını atan körpə qızcığaz arı sancmasının ağrısına məruz qalır. Ona dözə bilmir.

*Dişlədi, uçdu arı,*
*Bapbalaca Gülnarın,*
*Balaca barmağını.*
*Qızcığaz yalvardı ki,*
*Baqrmağından çıxartsın,*
*Tez nənəsi ağrını.*

Gülnar nənəsindən xahiş edir ki, vücuduna hakim kəsilmiş bu ağrını canından çıxartsın.

Anar qızcığazın arı sancmasının

ağrısına dözə bilməməsini ürək ağrısı və uşaq sadəlövhlüyü ilə göstərir və oxucunu düşündürməyə vadar edir.

Görəsən qızcığazı həyatda daha hansı ağrılar gözləyir? Vətən itgisi ağrısına necə, dözə biləcəkmi? Maddi-mənəvi ağrılara tab gətirə biləcəkmi? Dönük çıxmış sevgi ağrısını necə qarşılayacaq? Sonra da fikirləşirsən, - ağrılardan xəbərsiz körpə qızcığaz, öyrən bu ağrılara.

Həyatda ağrı yükünə dözmək üçün Anar Fazilzadə, ümid edirəm ki, ilk kitabınız oxucu ilə üz-üzə dayanmaqla, sizin yaradıcılıq məhsulunuzu artıracaq və daha uğurlu yazılar yazmağa sövq edəcəkdi.

Anarın nəsr sahəsində də istedadı və yazı bacarığı diqqətə layiqdir. Belə

ki, o kiçik həcmli müxtəlif mövzulara toxunan maraqlı hekayələrdə yazır.

Hekayələrdə verilən adlar, mövzu seçimi, dil üslubunun sadəliliyi, fikrin aydın verilməsi, mövzu yığcamlığı və s. onun nəsr sahəsində də söz demək bacarığından xəbər verir. "Yuxu", "Gülnar və arılar", "Yolka qonaqlarının sərgüzəşti", "Asəfin kələyi", "Kosanın bayram səfəri" və s. hekayələr yuxarıda dediklərimizə sübutdur. Mən isə diqqətimi daha çox cəlb etdiyi üçün "Canavar ovunu necə ovlayır" adlı hekayənin üstündə dayanacağam.

"Canavar ovunu necə ovlayır" hekayəsində Kamil müəllimin "Zoologiya" dərsi təsvir olunur. Bu hekayədə müəllim nüfuzu, onun dərsi necə təşkil etmək bacarığı, mövzunun həyat hadisələri ilə əlaqələndirmək qabiliyyəti, ümu-

miyyətlə tədris edəcəyi fənni şagirdlərə sevdirmək məharətini bir cümlə ilə oxucuya çatdırır.

*“Müəllim bu şirin söhbətin arxasınca “Elman, ağzını açıq qoyma, milçək girər””* cümləsi uşaqları söhbətdən ayırıb gülüşdürür.

Böyük Nyuton deyib ki, əgər mən uzağı görürəmsə, bu gün çiynində dayandığım dahilərə-müəllimlərimə borcluyam.

Müəllimin tədqiqat obyekti zəka sahibi olan insandır. Əsl müəllimin ən böyük şah əsəri onun tələbəsi olmalıdır. Müəllim tələbəsini sevməlidir ki, o tələbələri tərəfindən məhəbbət, sevgi, hörmət və borc hissi ilə qarşılaşsın.

İngilis alimi Devidən soruşurlar ki, sənin böyük elmi kəşfin hansıdır? - Faradeydir, deyə cavab verir. Çünki fi-

zika aləminə Faradeyi Devi gətirmişdir.

Bu hekayədə Anar Fazilzadə bütün dövrlər üçün aktual olan bir məsələyə: - müəllim-şagird münasibətinə toxunmuşdur.

Hekayədən aydın olur ki, Kamil müəllim istədiyinə nail olmuşdur. Çünki tədris etdiyi fənni şagirdlərinə sevdirmiş və onların qəlbində bir məşəl yandırmışdır. Əhsən belə müəllimlərə.

*14. 06. 2000.*

***Sakit TƏBİB,***

***Aqrar Universitetin dosenti.***

# KİTABIN İÇİNDƏKİLƏR

***Rəsul MUROVDAĞLI***
Heyif ki... *(Ön söz)* .................................. 3

## ŞEİRLƏR

Zaman dəyişib ........................................ 8
Xəlil Rza ömrü ...................................... 10
Atlı Xəlil Rza ......................................... 12
Qış ...................................................... 14
Arzu...................................................... 15
Arının ağrısı.......................................... 16
İt xiyarı ................................................. 17
Aydının babası....................................... 17
Günün şüası .......................................... 18
Öküz ağa............................................... 19
Günayın şəkli......................................... 19
Qış gecəsi ............................................. 20
Yaz ....................................................... 21

Əkiz bacılar ............................................ 21
Əsgər gedəndə ........................................ 22
Dağların ................................................... 23
Ana istəyi ................................................ 24
Dostuma məktub ...................................... 25

## HEKAYƏLƏR

Yuxu ....................................................... 28
Gülnar və arılar ....................................... 30
Əsl zəmanə uşağıdı ................................. 32
Yolka şənliyi qonaqlarının sərgüzəşti ..... 34
Tülkü və dovşan ...................................... 37
Pinti Dadaş ............................................. 39
Asəfin kələyi .......................................... 42
Kosanın bayram səfəri ............................ 44
Qoçaq dovşan və tamahkar ayı ................ 52
Canavar ovunu necə ovlayır .................... 54
Muştuluq ................................................. 58
Hamısından yaxşısı ................................. 62

**ƏL İŞLƏRİNDƏN NÜMUNƏLƏR** ..... 65

## RƏYLƏR

***Fazil SƏNAN***

Çətin yolun ilk addımı ............................ 76

***Ələsgər ƏLİOĞLU***

Səmimi hisslər ....................................... 101

***Ələmdar FƏRZƏLİ***

Çətin yolun başlanğıcı ........................... 104

***İnqilab İSAQ***

Uğurlar diləyirik .................................... 110

***Sakit TƏBİB***

Ot kökü üstə bitər .................................. 112

**Anar FAZİLZADƏ**
*(Vəliyev Anar Fazil oğlu)*

# UŞAQLIQDAN BOYLANAN XƏYALLARIM

**Operatorlar:**

***Məlahət Xəlilova***
***Sona İsayeva***

**Qiyməti müqavilə ilə**

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Çapa imzalanmışdır: 09.07.2018.
Kağız formatı: 60x84 1/32. Həcmi: 4 ç.v.
Sifariş 9. Tiraj 500.

«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~